**BİZİM ŞÜAR:**
**“NÜMUNƏVİ HƏRBİ İNTİZAM VƏ YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI UĞRUNDA!”**

## UNUTMA!

**1813-1828-ci illərə** qədər Azərbaycanın ərazisi təxminən 410 min kv.km idi. İki dövlət arasında bağlanmış müqavilə əsasında bu ərazilərdən 280 min kv. km İranın, 130 min kv.km isə Rusiyanın əsarəti altına düşdü. Çar Rusiyası dağıldıqdan sonra, **1918-ci ildə** Azərbaycan torpaqlarından 9 min kv.km-lik əraziyə malik İrəvan xanlığı Ermənistana, 7 min kv.km-lik ərazidə qərar tutan Dərbənd xanlığı isə bolşevik Rusiyasına verildi.

**1918-1920-ci illərdə** cəmi 23 ay yaşayan Azərbaycan Demokratik Respublikasının ərazisi 114 min kv.km olub.

Bolşevik Rusiyasının qoşunlarının **1920-ci ilin 28 aprelində** ADR-i işğal etməsindən sonra ərazilərimizin bölünməsi bu şəkildə davam etdirildi:

Zəngəzur, Dərələyaz və Dilcan (cəmi 10,9 min kv.km ərazi) Ermənistana, Borçalı mahalı (cəmi 9,5 min kv.km ərazi) Gürcüstana verildi.

Azərbaycan torpaqlarının qonşularımıza bağışlanması SSRİ dövründə də Moskvanın diqtəsi ilə davam etmişdi. Bu illərdə Göyçə mahalı və Naxçıvandan 9 yaşayış məntəqəsi, Qazaxdan 50 kv.km-lik ərazi, Cəbrayıl qəzasından Nüvədi, Ernəzir və Tuğud kəndləri, 40 kv.km-lik meşə sahəsi, Tovuz rayonunun 7,6 kv.km-lik ərazisi ermənilərə verilmişdir.

**1988-1993-cü illərdə** ərazisi 86,6 min kv.km olan Azərbaycanın aşağıdakı əraziləri işğal altına düşmüşdür: Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) cəmi 4400 kv.km idi.

| | | |
|---|---|---|
| **Şuşa şəhəri** | **- (289 kv.km)** | **- 8.05.1992** |
| **Laçın rayonu** | **- (1835 kv.km)** | **- 17.05.1992** |
| **Kəlbəcər rayonu** | **- (1936 kv.km)** | **- 2.04.1993** |
| **Ağdam rayonu** | **- (1094 kv.km)** | **- 23.07.1993** |
| **Cəbrayıl rayonu** | **- (1050 kv.km)** | **- 18.08.1993** |
| **Füzuli rayonu** | **- (1386 kv.km)** | **- 23.08.1993** |
| **Qubadlı rayonu** | **- (802 kv.km)** | **- 31.08.1993** |
| **Zəngilan rayonu** | **- (707 kv.km)** | **- 29.10.1993** |

*AZƏRBAYCANIN MÜDAFİƏ SƏNAYESİNDƏ YENİLİK*

## “AĞILLI” AVİABOMBALARIN İSTEHSALINA BAŞLANILACAQ



**Azərbaycan Müdafiə Sənayesi Nazirliyi (MSN) 2015-ci ildə “ağıllı” aviasiya bombalarının seriyalı istehsalına başlayacaq.**

“AzeriDefence” İnformasiya Agentliyinin yaydığı xəbərə görə, bu barədə jurnalistlərə açıqlamasında müdafiə sənayesi naziri Yavər Camalov məlumat verib.

Hazırda həmin bombalar test mərhələsindədir. GPS-lə idarə olunan qanadlı aviasiya bombaları “at-unut” prinsipi ilə işləyir. Bombaların nümunələrini sentyabr ayında keçirilən ADEX-2014 sərgisində nümayiş etdirilib.

Nazirliyin müəssisələrindən birində hazırlanmış QFAB-100 SAB tipli idarə olunan qanadlı aviasiya bombası GPS və QLONNAS naviqasiya idarəetməsinə malikdir. 200-10.000 metr hündürlükdən atıla bilən bu bombanın uçuş məsafəsi aşağı hündürlükdən atıldıqda 20, yuxarı hündürlükdən atıldıqda 40, mühərriklə atıldıqda isə 65 km təşkil edir. Partlayış zamanı bu bomba 5 mindən artıq qəlpə yaymaqla ətraf ərazidə güclü dağıntı yaratmağa qadirdir.



**Agentliyin digər xəbərində isə bildirilir ki, MSN “Yalquzaq” snayper tüfənginin zavod sınaqlarını yekunlaşdırıb.**

7.62x51 mm (308 Win) NATO kalibrli patronlardan istifadə edən Azərbaycanın ilk snayper tüfəngi sınaqlarda müsbət nəticələr göstərib. Qeyri-avtomatik prinsipdə işləyən “Yalquzaq”da atəş zamanı nişanalma əməliyyatını rahatlaşdırmaq üçün yığılan qundağın konstruksiyasında qalxma hündürlüyü nizamlanan yanaq və arxalıq nəzərdə tutulub. Qundağın konstruksiyası onun sol tərəfə yığılmasına və uzunluğunun dəyişməsinə imkan verir. Silaha bütün növ optik və gecə görmə nişangahları quraşdırmaq mümkündür. Nişangah məsafəsi 1000 metr təşkil edən “Yalquzağ”ın çəkisi boş halda 7,2 kqdır

## NARKOMANİYA – BƏŞƏRİYYƏTİ MƏHVƏ APARAN YOL...

Narkomanlığın tarixi çox qədimdir. Hələ eramızdan əvvəl narkotik tərkibli vasitələr haqqında məlumatlara yunan, roma, ərəb alim və həkimlərinin əsərlərində rast gəlinir. Avropa və Asiya qitələrində məskunlaşmış xalqların mifologiyasında yağlı xaşxaş insanların ağrı və əzablarının qənimi kimi qavranılmış, xaşxaş qozasından alınan şirə (tiryək) isə həmişə tibbi məqsədlər üçün istifadə edilmişdir. Ümumiyyətlə, tiryəkli preparatlar orta əsrlərdə təbabətdə geniş yayılmış, tiryəkdən hazırlanan dərmanlardan ruhi xəstələri sakitləşdirmək, əzabları azaltmaq, spazma və sarsıntıları götürmək, pozulmuş əsəb-sinir sistemini bərpa etmək üçün istifadə olunub.

Narkotik tərkibli bitkilərdən müalicə məqsədi ilə istifadə olunması uzaq keçmişdə olduğu kimi müasir dövrümüzdə də aktualdır. Eyni zamanda insan orqanizminə, səhhətə, sağlamlığa, mənəviyyata ən sağalmaz zərbələr vuran, ən çirkin, ən ikrahedici vərdiş kimi qəbul edilən narkomanlıq və narkotiklərə aludəçilik bu gün olduğu kimi qədim zamanlarda da ən xoşagəlməz vərdiş kimi qəbul edilmişdir. Şərq ölkələrinə səyahətə çıxanlar tiryək istehlakçılarının acınacaqlı vəziyyətinin şahidi olduqda bunu yanlış olaraq həmin xalqın ənənələri ilə bağlamış, hətta Hindistanı gəzən bir alim tiryəkdən fiziki asılılığı belə şərh etmişdir: «Kim tiryəkə vərdiş edibsə, onu hər gün qəbul etməlidir». Fransada ziyalıların dəbdə olduğu «Həşişçilər məclisi»nin üzvü məşhur şair Şarl Bodler (1821-1867) «Süni cənnət» əsərində özünün mübtəla olduğu «ağ sərxoşluq» mərhələsini şəxsi təcrübəsinə əsaslanaraq, belə təsvir etmişdir: «Bilmirəm, həşişdən ölümcül zəhərlənmənin nəticələri ilə on illik təcrübədən keçmiş tiryəkçilərin süqutu arasında bərəbərlik işarəsi qoymaq olar ya yox, lakin mən təsdiq edirəm ki, onların biri sakitcə tovlayan (həşiş), digəri isə əndazə bilməyən iblisdir».

«Narkotik asılılıq» elmi anlayış kimi XVIII əsrin əvvəllərində meydana gəlmişdir. İyirminci yüzilliyin sonunda isə narkomaniya ümumbəşəri bəlaya çevrilərək fiziki mənada ayrı-ayrı xalqların genefonduna sarsıdıcı zərbələr vuran, qarşısının alınması böyük çətinliklər, külli miqdarda xərclər bahasına başa gələn, son dərəcə neqativ bir amil olmaqla yanaşı, digər tərəfdən də narkobaronların narkotiklərin qanunsuz dövriyyəsindən külli miqdarda gəlir əldə etməsi üçün bir vasitəyə çevrilmişdir.

Narkotizmlə mübarizə uzunmüddətli, çoxşaxəli, geniş maliyyə vəsaiti tələb edən dinamik bir prosesdir. Problemin ictimai təhlükəliliyi isə ondan ibarətdir ki, bu cinayət həmişə gizli şəraitdə baş verir, nəzarətdən kənarda qalır və durmadan artır.

Yuxarıda deyilənləri Amerika Birləşmiş Ştatlarının timsalında bariz şəkildə görmək olar. İqtisadi cəhətdən son dərəcə inkişaf etmiş bu dövlətdə qeyri-qanuni dövriyyədə olan narkotik vasitələrin nəzarət edilən faizi narkomanların ilk növbədə düzgün qeydiyyatına əsaslanaraq hesablanır və həmin nəticələrə uyğun olaraq müxtəlif xarakterli tədbirlər işlənib hazırlanır.

Narkotizmlə mübarizədə bütövlükdə cəmiyyətin, dövlətin, xalqın, nəhayət hər bir şəxsin fərdi və birgə fəaliyyətinə, barışmaz münasibətinə və əməli köməyinə böyük ehtiyac vardır.

Narkomanlıq eynilə narkotiklərin qanunsuz dövriyyəsinin coğrafiyası kimi sərhəd tanımır. Bu dəhşətli xəstəlik dinindən, dilindən, irqindən, sosial vəziyyətindən asılı olmayaraq hamı üçün eyni dərəcədə təhlükəlidir. O cinayətkarlığı, zorakılığı və korrupsiyanı yaradır, QİÇS-in sürətlə artmasına təkan verir, sosial-iqtisadi inkişafı səngidir, ailə və icmaları dağıdır, sosial partlayışlara sürükləyir.

Təəssüf hissi ilə qeyd olunmalıdır ki, narkomaniyanın sarsıdıcı nəticələri Azərbaycandan da yan ötməyib və ən acınacaqlısı budur ki, gənclər və yeniyetmələr arasında narkotiklərə aludəçilik hallarına rast gəlinir. Əlbəttə, bir sıra dövlətlərlə müqayisədə respublikamızda narkotizm dəhşətli şəkil almayıb.

Yaddan çıxartmamalıyıq ki, narkomanlıq yoluxucu xəstəlikdir, üstəlik də QİÇS-ə aparan bir yol kimi gizli şəkildə sürətlə yayılmaq xüsusiyyətlərinə malikdir.

SSRİ-nin tərkibində yaşadığımız 70 il ərzində biz narkomaniya problemi ilə məşğul olmaq, ona qarşı mübarizə aparmaq əvəzinə daha çox bu problemi gizlətməyə, narkotizmin cəmiyyətdə mövcudluğunu inkar etməyə çalışmışıq. Nəticə etibarı ilə bu dəhşətli xəstəliyin “qol-qanad açmasına” öz laqeydliyimizlə şərait yaratmış, antinarkotik təbliğat və maariflənməyə isə məhəl də qoymamışıq. O dövrdə narkotiklərlə bağlı cinayətlər haqqında rəsmi statistik məlumatlar ictimaiyyət və kütləvi informasiya vasitələrindən qapalı saxlanılıb.

Müstəqillik əldə etdikdən sonra isə bir sıra problemlər kimi narkotizm probleminin üzərindən də pərdələr götürüldü və bu neqativ hala qarşı mübarizə tədbirləri görülməsinin vacibliyi ön plana çıxdı. Bir sözlə, problemə münasibətdə yeni mərhələ başlanıldı. Şərti olaraq «yeni» adlandırdığımız bu mərhələnin ən uğurlu cəhəti ondan ibarətdir ki, narkotizmə qarşı mübarizədə dövlət orqanları ilə yanaşı, ictimai təşkilatların fəaliyyəti üçün də lazımi şərait yaradıldı.

Son illər respublikamızda da narkotik vasitələrə və bihuşedici maddələrə qarşı mübarizə xeyli güclənmiş, bu sahəyə cavabdeh olan dövlət orqanları ilə yanaşı, ictimai təşkilatlar da fəallığı xeyli artırmışlar.



*Bu gün bəşəriyyəti düşündürən və rahatsız edən ən ağrılı problemlərdən biri də cəmiyyətin ciddi bəlasına, xalqın, millətin təhlükə mənbəyinə çevrilən narkomaniya və geniş anlamda narkotizmdir.*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev narkomanlığa və narkotik vəsitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəni ümumdövlət vəzifəsi hesab edərək, 1996-cı il avqustun 26-da müvafiq fərman imzalamış və problemin həlli üçün keçirilən tədbirlər kefiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.

Bu fərman əsasında ölkəmizdə 2000-ci ilədək narkomanlığın yayılmasına, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Ümummilli Proqram hazırlanmış, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradılmış, 18 iyun 1999-cu ildə isə Milli Məclis tərəfindən «Narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. Bu Qanunun başlıca əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycanda narkotik tərkibli bitkilərin kultivasiyası, narkotik vasitələrin və psixotrop maddələrin istehsalı, dərman preparatlarının və xammalın hazılanması qanunla qadağan edilmişdir.

### NARKOTİKDƏN İSTİFADƏNİN ACI NƏTİCƏLƏRİ:

***- Narkotikdən bir neçə dəfə istifadə etdikdə insan onun əsirinə çevrilir. Buna bir növ xəstəlik də demək olar ki, hansı ki, müalicəsi olduqca çətinliklə başa gəlir.***

***- Narkotikdən istifadə insanı həm psixoloji, həm də fiziki cəhətdən asılı hala salır. Statistikaya görə narkomaniyaya düçar olan yeniyetmələrin 14%-i narkotik maddələrdən ilk dozanı qəbul etdikdən sonra ondan asılı vəziyyətə düşürlər.***

***- Narkotik ilk növbədə insanın sağlamlığına ziyan vurur. Narkomaniya orqanizmin və fiziki gücün zəifləməsinə, bədənin arıqlamasına gətirib çıxarır. Orqanizmin zəhərlənməsi daxili orqanların - qaraciyər və böyrəyin məhvinə gətirib çıxarır.***

***- Narkomanlar içərisində ən geniş yayılmış xəstəlik hepatit və QİÇS-dir.***

***- Narkotikdən istifadə edənlərdə baş beynin qabığı 7 dəqiqədən sonra ölməyə başlayır. Əlbəttə, bütün qabıq birdən ölmür, bu yavaş gedən prosesdir. Buna görə də bir çox narkoman yaşamağa davam edir. Amma onlar natamam insan olurlar. Elələri olur ki, hərəkət edə bilmir, heç bir reaksiya göstərmir, düşünmürlər. Onların beyni ancaq fizioloji prosesləri idarə edir. Məsələn, onları yedirtdikdə yeyir, əşyalardan istifadə edə bilmir, danışa bilmirlər.***

***- Narkotikin olmaması əsəbləşməyə və hirslənməyə gətirib çıxarır. Böyük narahatçılıq başlayır. İnsan artıq heç bir işlə məşğul ola bilmir.***

***- Narkotikə aludə olan insan hər bir alçalmaya, iyrənc hərəkət etməyə məcbur olur. Həmin insanın bütün maraqları, ümidləri və qarşısına qoyduğu məqsədləri getdikcə sönür.***

***- Narkotika istifadə edən insanların valideynləri, müəllimləri və yoldaşları ilə münasibətləri pisləşir.***

***- Narkotika istifadəçilərinin dünyaya gələn uşaqları da əqli və ya fiziki cəhətdən qüsurlu doğulur.***

***- Narkomanların ömrü də qısa olur. Onlar təxminən 6-7 il ömür sürürlər.***

***- Cinayət törədən insanların böyük əksəriyyəti də narkotika istifadəçiləri olur.***

Unutmayın ki, narkomaniyaya qarşı mübarizədə hər bir vətəndaşın üzərinə məsuliyyət düşür. Çalışaq ki, sağlam gələcəyimizi “ağ ölüm”ün pəncəsinə verməyək!

Narkotik maddələr, ən böyük zərbəni ilk növbədə insanın iradəsinə vurur. İradəsi zəifləmiş fərd isə damarlarında dolaşan nəfsani istəyə qarşı mübarizədə çarəsiz qalaraq öz canına qıymağa belə tərəddüd etmir.

### Allah rəhmət eləsin

DQBİ-nin şəxsi heyəti polkovnik Çingiz Daşdəmirova **dayısının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DQBİ-nin şəxsi heyəti polkovnik Fuad Alıyevə bacısı oğlunun **vaxtsız vəfatından** kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DQBİ-nin şəxsi heyəti polkovnik-leytenant Vüqar Aydınova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DQBİ-nin şəxsi heyəti polkovnik-leytenant Vahid Xanbabayevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

17074 saylı hərbi hissənin şəxsi heyəti mayor Səməd Surxayova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: mayor R.Sarıyev

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 560-12-21

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

ƏSGƏR

№ 01 (443)
15 yanvar 2015-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# 2015-ci İLİ DƏ UĞURLA BAŞA VURACAĞIQ

### Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı

**1994-cü il fevralın 1-dən 2010-cu il iyunun 12-dək həqiqi hərbi xidmətdən ehtiyata və istefaya buraxılmış hərbi qulluqçulara (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından başqa) həmin dövrün təqvim illərində istifadə edilməmiş növbəti məzuniyyətə görə kompensasiyanın ödənilməsi qaydasının və məbləğinin müəyyən edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Həqiqi hərbi xidmətdən ehtiyata və istefaya buraxılmış hərbi qulluqçulara (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından başqa) istifadə edilməmiş növbəti məzuniyyətə görə kompensasiyanın hesablanması üçün 1994-cü il fevralın 1-dən 2010-cu il iyunun 12-dək dövr əsas götürülsün.

**2.** 1994-cü il fevralın 1-dən 2010-cu il iyunun 12-dək həqiqi hərbi xidmətdən ehtiyata və istefaya buraxılmış hərbi qulluqçular (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından başqa) həmin dövrün təqvim illərində qanunvericilikdə nəzərdə tutulmuş növbəti məzuniyyətdən istənilən səbəbdən istifadə etmədikdə, onlara həqiqi hərbi xidmətdə olduqları dövrün təqvim illəri üçün istifadə edilməmiş növbəti məzuniyyətə görə veriləcək kompensasiyanın məbləği həqiqi hərbi xidmətdə olduğu dövrdə sonuncu vəzifə üzrə 2010-cu il 12 iyun tarixinə qüvvədə olan vəzifə maaşının, hərbi rütbəyə görə maaşın və xidmət illərinə görə əlavənin məbləğini ayın təqvim günlərinin orta illik miqdarına (30,4 günə) bölməklə və alınmış məbləği istifadə edilməmiş məzuniyyət müddətinin təqvim günlərinin sayına vurmaqla müəyyən edilir.

**3.** Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə, Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinə, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsinə, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinə, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinə, Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinə tapşırılsın və Azərbaycan Respublikasının Hərbi Prokurorluğuna tövsiyə edilsin:

**3.1.** 2010-cu il 12 iyun tarixinədək ehtiyata və istefaya buraxılmış hərbi qulluqçunun həmin tarixə xidmətdən buraxıldığı ştat vəzifəsi mövcud olmadıqda, 2010-cu il 12 iyun tarixində qüvvədə olan vəzifələrə bərabər müvafiq uyğunlaşdırılma aparılmaqla, kompensasiyanın bu qərarın 2-ci hissəsində nəzərdə tutulmuş qaydada hesablanmasını təmin etsinlər;

**3.2.** istifadə edilməmiş növbəti məzuniyyətə görə kompensasiya hesablanarkən, hər bir konkret halda hərbi qulluqçunun vəzifə maaşının, hərbi rütbəyə görə maaşın və xidmət illərinə görə əlavənin məbləği ilə əlaqədar qeydiyyatı aparılan haqq-hesab sənədləri üzrə araşdırma apararaq onların həmin dövrdə növbəti məzuniyyətdən istifadə edib-etməmələri və buna görə ödəmələrin verilməsi hallarını nəzərə alsınlar.

**4.** Müəyyən edilsin ki, ehtiyata və istefaya buraxılmış hərbi qulluqçulara istifadə edilməmiş növbəti məzuniyyətə görə kompensasiyanın ödənilməsi bu qərarın 3-cü hissəsində göstərilən dövlət orqanları üçün dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitlər hesabına həyata keçirilir.

**Artur RASİ-ZADƏ,**
**Azərbaycan Respublikasının Baş naziri**
**Bakı şəhəri, 26 dekabr 2014-cü il**

*Yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirildi. Dövlət başçısı iclasda giriş nitqi söylədi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqindən:

- Bu gün biz 2014-cü ilin yekunlarını müzakirə edəcəyik. Deyə bilərəm ki, keçən ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla icra edilmişdir. 2014-cü il də ölkəmiz üçün uğurlu il kimi tarixdə qalacaqdır.

Keçən il dünyada və bölgədə müxtəlif proseslər gedirdi. Gərginlik, demək olar ki, böyük dərəcədə artmışdır. Ancaq Azərbaycan öz sürətli inkişaf tempini saxlaya bilmişdir. Ölkəmizin təhlükəsizliyi təmin edilmişdir, iqtisadi və sosial proqramlar icra olunmuşdur. Azərbaycan xalqı 2014-cü ildə də təhlükəsizlik şəraitində yaşamışdır.

İqtisadiyyatımız təxminən 3 faiz artmışdır. Bu, bugünkü dünyada çox gözəl göstəricidir. Bəzi ölkələrdə artım da yoxdur, əksinə, tənəzzül müşahidə edilir. Artım olan ölkələrdə bu, 1 faizə qədərdir.

Ən sevindirici hal ondan ibarətdir ki, qeyri-neft sektorumuz 7 faiz artmışdır. Bu da son illər ərzində görülən işlərin bariz nümunəsidir, aparılan siyasətimizin təzahürüdür. Qeyri-neft sektoru gələcəkdə Azərbaycanın iqtisadi inkişafını daha da böyük həcmdə təmin edəcəkdir.

İnflyasiya çox aşağı səviyyədə olmuşdur - 1,4 faiz. Bu da çox gözəl göstəricidir. Əhalinin pul gəlirləri isə 4,8 faiz artmışdır. Əhalinin pul gəlirləri inflyasiyanı üç dəfədən çox üstələmişdir.

Ölkə iqtisadiyyatına 27 milyard dollar investisiya qoyulmuşdur. Onlardan 16 milyardı daxili sərmayədir.

Hazırda bizim 50 milyard dollardan çox valyuta ehtiyatlarımız vardır.

Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, 2014-cü ildə Azərbaycan iqtisadiyyatı dünyada rəqabətqabiliyyətliliyinə görə 38-ci yerə layiq görülmüşdür. Yəni, biz dünyanın ən rəqabətli 40 iqtisadiyyatı arasındayıq. Bu, tarixi nailiyyətdir.



Hazırda Azərbaycanda yoxsulluq 5 faiz səviyyəsindədir. Keçən il də yoxsulluq aşağı düşübdür, işsizlik 5 faizdən aşağıdır. Bizim gördüyümüz işlərin nəticələri bax, budur.

Dünyada neftin qiyməti kəskin şəkildə, 2 dəfədən çox aşağı düşmüşdür. Əlbəttə ki, bu, bizim gəlirlərimizə mənfi təsir edəcək. Ancaq buna baxmayaraq, iqtisadiyyatımızın şaxələndirilməsi istiqamətində görülən və bundan sonra görüləcək işlər, institusional islahatlar və daha da səmərəli idarəetmə üsullarının tətbiq edilməsi nəticəsində əminəm ki, Azərbaycan bu vəziyyətdən də şərəflə çıxacaq, manatın məzənnəsi sabit olaraq qalacaq, iqtisadi inkişaf təmin ediləcəkdir.

Keçən il ikinci peykimiz orbitə buraxıldı. Bu da çox gözəl hadisədir. Bu da nəhəng layihələr arasında özünəməxsus yer tutan bir layihədir. Artıq bizim iki peykimiz var. Biri telekommunikasiya peyki, ikincisi Yer səthini müşahidə edən peyk. Bunun çox böyük əhəmiyyəti var və Azərbaycanda kosmik sənayenin inkişafı sürətlə gedir.

“ASAN xidmət” mərkəzlərinin açılmasını xüsusilə qeyd etmək istəyirəm. Artıq 7 mərkəz fəaliyyət göstərir, iki il ərzində 3 milyon 500 min müraciət olmuşdur və orada göstərilən xidmətlərin sayı artır, keyfiyyəti yüksək səviyyədədir, cəmiyyət tərəfindən çox müsbət qarşılanır.

O ki qaldı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə, əfsuslar olsun ki, keçən il də bu istiqamətdə heç bir irəliləyiş olmamışdır.

Ermənistan aciz durumda olan, gücsüz, dilənçi bir ölkədir. Əlbəttə, əgər onun müxtəlif paytaxtlarda böyük havadarları olmasaydı, Dağlıq Qarabağ münaqişəsi çoxdan ədalətli şəkildə öz həllini tapa bilərdi. Hətta hazırda Ermənistan rəhbərliyi də bunu etiraf edir. Xarici dəstək olmadan onlar işğal edilmiş torpaqları bir gün də işğal altında saxlaya bilməzlər. Ancaq biz təkbaşına mübarizə aparırıq. Yaxın tariximiz göstərib ki, biz hətta təkbaşına mübarizədə, siyasi mübarizədə uğur qazana və öz milli maraqlarımızı müdafiə edə bilərik.

2015-ci ildə biz ordu potensialımızı daha da gücləndirəcəyik. Bu məqsədlər üçün kifayət qədər böyük vəsait ayrılıbdır. Təkcə onu demək kifayətdir ki, hərbi xərclərə ayrılan vəsait Ermənistanın ümumi büdcəsindən 2 dəfədən çoxdur. Ordumuzda nizam-intizam, döyüş qabiliyyəti artır, vətənpərvərlik ruhu yüksək səviyyədədir. Biz daha da güclü oluruq, Ermənistan daha da zəifləyir. Bu, qaçılmaz bir prosesdir. Yəni, növbəti illərdə ancaq bu proses daha da sürətlə gedəcək.

Yenə də demək istəyirəm ki, 2014-cü ilin yekunları və 2015-ci il bir daha bizim gücümüzü göstərəcək. Nə neftin qiymətinin düşməsi, nə böhranlar, nə yaxınlıqda baş verən qanlı toqquşmalar bizim sürətli inkişafımıza təsir edə bilməz. Mən tam əminəm ki, biz 2015-ci ili də uğurla başa vuracağıq və ölkəmizin inkişafını təmin edəcəyik.

### Prezident İlham Əliyevin yekun nitqindən:

- 2015-ci ildə ölkə qarşısında duran vəzifələr bəllidir. Biz çalışmalıyıq ki, iqtisadi inkişafımızı təmin edək. Əminəm ki, belə olacaq. Ancaq heç kəsə sirr deyil ki, 2015-ci il dünya iqtisadiyyatı üçün çox ağır il olacaqdır. 2014-cü ilin sonlarında müşahidə olunan proseslər təbii ki, 2015-ci ildə də davam edəcək. Dünyada mövcud olan qeyri-sabit iqtisadi vəziyyət hələ bir müddət davam edəcəkdir. Neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi əlbəttə ki, təbii resurslarla zəngin ölkələr üçün bir sınaq olacaqdır.

Xüsusilə bir daha demək istəyirəm ki, 2015-ci il dünya üçün asan il olmayacaq. 2015-ci ildə bank resurslarının iqtisadiyyatın real sektoruna yönəldilməsi, əlbəttə ki, bizim üçün prioritet olacaq.

Bakıda birinci Avropa Oyunları keçiriləcəkdir. Oyunların keçirilməsinə beş ay qalıbdır. Təşkilat Komitəsi çox fəal işləyir, bütün vəzifələri icra edir. Bütün dövlət qurumları bu işdə fəal iştirak edirlər. İndi hazırlıq son mərhələdədir. Biz Avropa Oyunlarını Yay Olimpiya Oyunlarının səviyyəsində keçirmək əzmindəyik. Bu Oyunlar bir Avropa bayramına çevrilməlidir. Azərbaycan burada yenə də liderlik keyfiyyətlərini göstərir. Çünki Avropa Oyunlarının standartları əslində Bakıda qoyulacaq. Çünki heç vaxt bu günə qədər belə oyunlar keçirilməmişdir. Bu oyunlar müxtəlif səviyyədə keçirilə bilərdi. Ancaq biz istəyirik ki, bu möhtəşəm idman bayramı möhtəşəm dostluq bayramına çevrilsin.

Bütün azadlıqlar - söz azadlığı, sərbəst toplaşmaq azadlığı, vicdan azadlığı, mətbuat azadlığı, internet azadlığı, din azadlığı təmin edilib. Bu azadlıqlar nəinki təmin edilib, eyni zamanda, bu, bizim həyat tərzimizdir, bu, dövlət siyasətidir. Ona görə, Avropa Oyunlarının keçirilməsi sadəcə olaraq bir idman tədbiri deyil. Hesab edirəm ki, bu tədbirdə iştirak edəcək idmançılar, qonaqlar Azərbaycanla əlbəttə ki, tanış olacaqlar və Azərbaycanın uğurlu inkişaf modelini görəcəklər.

Əgər bütün ölkələr öz daxili işləri ilə məşğul olsaydılar, başqa ölkələrin daxili işlərinə qarışmasaydılar və əsassız tələblər irəli sürməsəydilər, dünya daha da sabit olardı, təhlükəsizlik daha da çox təmin edilərdi.

Hər halda biz Azərbaycanda öz işimizi görürük, görəcəyik və əminəm ki, 2015-ci ili də uğurla başa vuracağıq.

## 20 YANVAR - ÜMUMXALQ MATƏM GÜNÜ

*“20 yanvar faciəsi şəhidlərinin Azərbaycan tarixində xüsusi yeri var. Onlar heç bir vuruşa girmədən öz Vətəninin, xalqının azadlığı yolunda şəhid olmuşlar.*
*Eyni zamanda onu da qeyd etmək lazımdır ki, o qanlı yanvar günü xalqımız öz əziz vətəndaşlarını itirsə də, öz namusunu, şərəfini qoruya bilmişdir. Xalqımız sübut etmişdir ki, onun iradəsini qırmaq olmaz”.*

**Heydər Əliyev, Azərbaycan xalqının Ümummilli Lideri**

**1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Azərbaycana yeridilməsi nəticəsində Bakıda və respublikanın rayonlarında 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdur. Sovet qoşunları tərəfindən 200 ev və mənzil, 80 avtomobil, küllü miqdarda dövlət və şəxsi əmlak məhv edilmişdir. Bu statistikanın arxasında bütöv Azərbaycanın yaşadığı dəhşətli faciə durur. Bu faciə eyni zamanda xalqın milli-azadlıq hərəkatının parlaq bir səhifəsidir.**

**Qanlı yanvar faciəsindən 25 il keçsə də, Azərbaycan xalqı həmin günün üzüntüsünü böyük ürək ağrısı ilə yaşayır.**

Təbii ki, 20 Yanvar faciəsinin törədilməsi Dağlıq Qarabağ münaqişəsi ilə birbaşa bağlıdır. Moskvanın xeyir-duası ilə ermənilər tərəfindən ərazi qoparmaq məqsədi ilə yaradılan Qarabağ problemi xalqımızın öz əzəli torpaqları uğrunda milli-azadlıq hərəkatı mübarizəsinə qalxması ilə nəticələnmiş, qısa zamanda geniş vüsət alaraq əsl xalq hərəkatına çevrilmişdir. Bu mənada 20 Yanvar hadisələri sovet imperiyası tərəfindən Azərbaycanın müstəqilliyinə, millətin azadlıq hərəkatına qarşı məqsədli şəkildə planlaşdırılmış cəza aksiyası idi.

Təsdiq olunmuş istintaq materiallarına görə, 1990-cı ilin ilk ongünlüyündə SSRİ rəhbərliyi tərəfindən Bakıda məqsədli təxribat və iğtişaşlar təşkil edilmiş, bunların qarşısını almaq üçün isə heç bir tədbir görülməmişdir. Şəhərdə kriminogen vəziyyəti ağırlaşdıraraq, qoşunların yeridilməsi üçün “əlverişli” şərait yaradılmışdır. Həmin günlərdə SSRİ Müdafiə Nazirliyinin, DİN Daxili Qoşunlarının və DTK-nın böyük hərbi kontingenti respublikaya gətirilmiş, onlar Qala və Nasosnu aerodromlarında, respublika stadionunda, habelə kazarmalarda yerləşdirilmişdir. Belə bir fakt da məlumdur ki, bu qüvvələr Bakıya gətirilməmişdən əvvəl şəhərdə Daxili Qoşunların 12 min nəfər əsgəri olmuşdur. Respublikada faktiki olaraq belə bir qüvvənin və o zamankı Azərbaycan SSRİ DİN-in qüvvələrinin olmasına baxmayaraq, “iğtişaşların qarşısını almaq məqsədilə” SSRİ rəhbərliyi tərəfindən Azərbaycana böyük qoşun kontingentinin yeridilməsi qırğının əvvəlcədən planlaşdırıldığını bir daha təsdiq edir.




Yanvarın 18-19-da AXC nümayəndələri, Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi Girenko, Bakı qarnizonunun rəisi general Sokolov, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ikinci katibi Polyeniçko, həmçinin Moskvadan gələn rəhbərlər qoşunların şəhərə girməyəcəyini dəfələrlə bəyan etmələrinə baxmayaraq, yanvarın 19-da televiziyanın enerji bloku partladılmış, xalq məlumatsızlıq şəraitində qalmışdır. Gecə isə qoşunun şəhərə girməsinə əmr verilmişdir. Fövqəladə vəziyyətin əvvəl tətbiqi, sonra isə elan olunması kobud qanun pozuntusu olmaqla yanaşı, imperiyanın məqsədinin xalqımıza qarşı qırğın törətmək olduğunun əyani sübutlarından biridir.

Faciədən iki gün sonra 1990-cı ilin yanvarın 22-də çağırılan Azərbaycan SSRİ Ali Sovetinin fövqəladə sessiyasında yanvar hadisələrinə münasibət bildirilmiş, SSRİ rəhbərlərinin hərəkətləri qətiyyətlə pislənilmişdir. Lakin Azərbaycan Kommunist Partiyasın n Mərkəzi Komitəsi o vaxt faciəyə siyasi-hüquqi qiymət verməkdən boyun qaçırmışdır.

**Bütün bunlara baxmayaraq, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1990-cı il noyabrın 21-də Ümummilli Liderimiz Heydər Əliyevin təşəbbüsü ilə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət vermişdir. Sessiyanın qəbul etdiyi sənəddə qeyd olunmuşdur ki, SSRİ rəhbərlərindən Qorbaçov, Yazov, Bakatin, Girenko, Mixaylov və Azərbaycan rəhbərlərindən Mütəllibov, Vəzirov, Polyaniçko, Müslüm Məmmədov və Vaqif Hüseynov xalqa qarşı həyata keçirilən bu siyasi və hərbi qəsd üçün cavabdehdirlər və birbaşa məsuliyyət daşıyırlar.**

1992-ci il yanvarın 19-da Milli Şuranın iclasında isə qəbul edilən qərar ilə faciəni araşdıran deputat-istintaq komissiyasının rəyi qənaətbəxş hesab edilmişdir.

**Yalnız faciədən dörd il sonra Ulu Öndər Heydər Əliyevin cəsarəti sayəsində Azərbaycan Respublikasının Milli Məclisi “1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında” 1994-cü il 29 mart tarixli qərarı ilə hadisələrə əsaslı siyasi-hüquqi qiymət vermişdir.**

## "Hərbi vəzifə və hərbi xidmət haqqında" AR Qanununa əlavə və dəyişikliklər edilib

Azərbaycan Milli Məclisinin dekabrın 30-da keçirilən iclasında "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanuna əlavə və dəyişikliklər layihəsi müzakirəyə çıxarılıb.

Layihə barədə parlamentin Təhlükəsizlik və müdafiə komitəsinin sədri Ziyafət Əsgərov məlumat verib. Komitə sədri qeyd edib ki, qanuna təklif olunan dəyişikliklər hərbi uçot və qeydiyyatın daha da təkmilləşdirilməsi məqsədi daşıyır. Qanunun yeni redaksiyada verilən 2.0.5-ci maddəsinə görə, hərbi qeydiyyat - Azərbaycan Respublikasının Silahlı Qüvvələrini və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq yaradılmış başqa silahlı birləşmələri şəxsi heyətlə komplektləşdirmək məqsədilə bütün çağırışçıların və hərbi vəzifəlilərin yaşayış yeri və ya olduğu yer üzrə müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınmasıdır.

Z.Əsgərov deyib ki, yeni layihə hərbi qeydiyyata götürülməli olmayanlar, həmçinin dinc dövrdə və müharibə dövründə həqiqi hərbi xidmətə yararsız hesab edilənlər barədə müddəaları da özündə ehtiva edir.

Qanuna əlavə edilən 28.6-cı maddəyə görə, müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşlara, hərbi qulluqçu hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinin kursantlarına, çağırış komissiyasının qərarı ilə çağırışdan azad edilib ehtiyata keçirilmiş, həm dinc dövrdə, həm də müharibə dövründə həqiqi hərbi xidmətə yararsız hesab edilmiş vətəndaşlara, öz razılığı ilə hərbi qeydiyyata götürülmüş 19 yaşdan 40 yaşadək qadınlara və ehtiyatda olan zabitlərə hərbi bilet verilir.

Müzakirələrdən sonra layihə səsə qoyularaq qəbul olunub.

## "20 Yanvar faciəsinin 25-ci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilib

Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin Sərəncamı ilə "20 Yanvar faciəsinin iyirmi beşinci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilib. Sənəddə respublikanın şəhər və rayonlarında, o cümlədən idarə və təşkilatlarda 20 Yanvar hadisələri ilə bağlı toplantı, konfrans və mühazirələrin təşkili, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların göstərilməsi, bədii və sənədli filmlərin nümayiş etdirilməsi, bu tədbirlərin kütləvi informasiya vasitələrində geniş işıqlandırılması, dünya ictimaiyyətinin diqqətini faciəyə yönəltmək məqsədi ilə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri və diaspor qurumları tərəfindən müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar faciəsi barədə materialların verilməsi nəzərdə tutulub.Tədbirlər planına əsasən, 20 Yanvar hadisələri zamanı şəhid olanların ailələrinə humanitar yardım veriləcək, Şəhidlər Xiyabanı ərazisində lazımi işlər aparılacaq, Azərbaycanda təmsil olunan əsas dini konvensiya və qurumlar tərəfindən faciə qurbanlarının xatirəsinə dini mərasimlər təşkil ediləcək. Bundan başqa, sənəddə paytaxt ictimaiyyətinin yanvarın 20-də Şəhidlər Xiyabanına ziyarətinin təşkili, saat 12.00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi, gəmilər, avtomobillər və qatarlar vasitəsilə səs siqnallarının verilməsi, gün ərzində Şəhidlər Xiyabanında matəm musiqisinin səsləndirilməsi, respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində hüzn əlaməti olaraq dövlət bayraqlarının endirilməsi və digər tədbirlər nəzərdə tutulub.

## Hərbi xidmətə çağırılan gənclərin hansı hərbi hissədə xidmət keçməsi SMS vasitəsilə bilinəcək

Həqiqi hərbi xidmətə çağırılan gənclər şəxsiyyət vəsiqələrinin nömrələrini 9100 nömrəsinə qısa mesaj şəklində göndərməklə də bu barədə məlumat əldə edə biləcəklər.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) məlumatına görə, bu xidmətdən bütün mobil operatorlara məxsus nömrələri olan şəxslər yararlana bilərlər.

Vətəndaşlar həmçinin SHXÇDX-nin www.seferberlik.gov.az ünvanında "Elektron xidmət" bölməsinə daxil olaraq özləri haqqında məlumatları yazmaqla xidmət edəcəkləri hərbi hissə və ya qoşun növünü dəqiqləşdirə bilərlər.

## ƏSGƏR VALİDEYNLƏRİ İLƏ NÖVBƏTİ GÖRÜŞ

**Dekabrın 28-də Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov Qoşunların Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində şəxsi heyətin kazarma-məişət şəraiti, qidalanması, sağlamlıq durumu və təminat-təchizatı ilə yaxından tanış olub.**

General-mayor Ş.Məmmədov həmin gün əsgər valideynləri ilə də görüşərək, onların müraciətlərini dinləyib. Daxili Qoşunların Komandanı əvvəlcə əsgər valideynlərini 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin sosial-iqtisadi inkişafından söz açan general-mayor Ş.Məmmədov Daxili İşlər Nazirliyinin tərkib hissəsi olan Daxili Qoşunların ötən illərdə, xüsusilə də 2014-cü ildə əldə etdiyi nailiyyətlər barədə məlumat verib.

2014-cü ilin Daxili Qoşunların həyatında yaddaqalan hadisələrlə əlamətdar olduğunu qeyd edən general-mayor Ş.Məmmədov sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunların



*Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov 2014-cü ildə əldə olunmuş nailiyyətlər barədə də ətraflı məlumat verib*

Qəbələ rayonunda yeni inşa olunan hərbi şəhərciyinin açılışında iştirakını bu ilin ən əsas hadisəsi kimi diqqətə çatdırıb. Xüsusi olaraq vurğulayıb ki, dövlət başçısının hər dəfə hərbi hissələrdə olarkən şəxsi heyətin xidməti-döyüş fəaliyyəti, o cümlədən sosial-məişət şəraiti ilə yaxından tanış olması, sözün əsl mənasında hərbi qulluqçularda döyüş əzminin yüksəlməsinə səbəb olur.

Yola saldığımız ildə şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması sahəsində də çox böyük addımlar atılıb. Qəbələ rayonu ərazisində yeni hərbi şəhərcik, Bakı şəhərinin Nərimanov rayonu ərazisində hər bir zəruri avadanlıqlarla təchiz edilmiş 12 mərtəbəli 102 mənzilli müasir yaşayış kompleksi zabit və gizirlərin istifadəsinə verilib. Eyni zamanda 2 beşmərtəbəli xidməti yaşayış binaları Binəqədi rayonu ərazisində inşa olunub.

Bundan başqa, mayın 30-dan etibarən ictimaiyyətlə əlaqələrin səmərəliliyinin artırılması, habelə Qoşunların həyatında baş vermiş yeniliklər barədə cəmiyyətin, o cümlədən əsgər valideynlərinin mütəmadi olaraq daha dolğun məlumatlandırılması məqsədilə Daxili Qoşunların rəsmi internet səhifəsi ("www.dq.mia.gov.az") fəaliyyətə başlayıb.

Daxili Qoşunlar Komandanlığının əsgər valideynləri ilə görüşünün artıq ənənəyə çevrildiyini deyən general-mayor Ş.Məmmədov bu kimi tədbirlərin keçirilməsinin müsbət hal kimi qiymətləndirib.

Əsgər valideynləri də öz növbəsində Daxili Qoşunlarda övladları üçün yaradılmış hərtərəfli şəraitə görə Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə, Daxili İşlər Nazirliyinin rəhbərliyinə və Daxili Qoşunlar Komandanlığına dərin minnətdarlıqlarını bildiriblər.

Sonda valideynlərin müraciətləri, arzu və istəkləri dinlənilib. Qaldırılan məsələlərin nəzarətdə saxlanılması istiqamətində konkret göstərişlər verilib. Həlli mümkün olan məsələlər isə dərhal yerinə yetirilib.

**Mətbuat xidməti**

## DAXİLİ QOŞUNLARIN HƏRBİ HİSSƏLƏRİNDƏ HƏMRƏYLİK GÜNÜ MÜNASİBƏTİLƏ KONSERT TƏDBİRLƏRİ KEÇİRİLİB

*Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunlar Komandanı general-mayor Şahin Məmmədov bayram münasibətilə şəxsi heyəti təbrik edib*

**Dekabrın 28-dən etibarən DİN-in Daxili Qoşunlarının hərbi hissələrində 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni il bayramı qeyd olunub. Dekabrın 31-də isə bu münasibətlə Daxili Qoşunların Bakı şəhərinin Nərimanov rayonunda yerləşən "N" saylı hərbi hissəsində zabit və gizirlərin ailələri, eləcə də Veteranlar Şurasının üzvlərinin iştirakı ilə bayram tədbiri keçirilib.**

Tədbir Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunlar Komandanı general-mayor Şahin Məmmədovun bayram münasibətilə şəxsi heyətə ünvanladığı təbrikin çatdırılması ilə başladı.

Təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş Dünya Azərbaycanlılarının Həmrəyliyi gününün müstəqillik əldə olunandan sonra xalqımız üçün böyük əhəmiyyət kəsb etdiyi vurğulanan təbrikdə bu bayramın şərəfli bir



tarixə çevrildiyi qeyd olunmuşdu. Xüsusi olaraq vurğulanmışdır ki, milli həmrəylik – mənəvi dəyərlərimizə, tarixi irsimizə bağlılıq, mübarizlik, özünəməxsus ənənələrimizə sadiqlik deməkdir. Vətənini, xalqını sevən hər bir azərbaycanlı öz dövlətini qorumalı, Vətənə böyük məhəbbət və sədaqət nümayiş etdirməlidir.

Sonra Daxili Qoşunların Nümunəvi-göstərici Hərbi Orkestrinin solistləri hərbi qulluqçuların ailə üzvləri qarşısında konsert proqramı ilə çıxışa başladılar. Yüksək səviyyədə təşkil olunmuş konsert proqramında rəngarəng musiqilər, rəqs nömrələri ilə yanaşı, vətənpərvərlik əzmini, döyüş ruhunu artıran mahnılara da xüsusi yer verilmişdi. Müğənnilər və rəqqaslarla canlı təmasda olan bayram iştirakçılarından ən cox sevinən, şadlanan məhz balacalarımız oldu. Onların orkestrin solistlərinə qoşularaq rəqs etməsi şənliyə sanki bir rəng qatırdı. "Şaxta baba"nın hərbi qulluqçularımızın uşaqları üçün gətirdiyi hədiyyələr də onların ürəyincə idi.

Dünya Azərbaycanlılarının həmrəyliyi günündə düşünürük ki, qoşunlarda keçirilən tədbirlərin şəxsi heyətin mənəvi-psixoloji durumunun daha da yüksəlməsinə cox böyük təsiri olur. "Əsgər" qəzetinin kollektivi də öz növbəsində bütün hərbi qulluqçuları bayram münasibətilə təbrik edir, yeni - 2015-ci ildə bol-bol sevinc və xidməti nailiyyətlər arzulayır.

**"Əsgər"**

## "AZYAŞLI HƏRBÇİLƏR"İMİZ DƏ HƏMRƏY OLDULAR



Dekabr ayının 25-də DİN-in Daxili Qoşunlarının 25031 saylı hərbi hissəsinin nəzdində açılmış uşaq bağçasında həm Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü, həm də Yeni il münasibətilə bayram tədbiri keçirildi. Tədbirdə Daxili Qoşunların Baş İdarəsinin mənəvi-psixoloji şöbəsinin rəisi polkovnik Mətləb Qənbərov, Daxili Qoşunların Veteranlar Şurasının üzvü, döyüşçü-şair Elxan Xəzər, hərbi hissə komandiri polkovnik Salamat Cəfərov və Daxili Qoşunların hərbi qulluqçuları iştirak etdilər.

Şənlik Azərbaycan Respublikasının Dövlət Himninin səslənməsi ilə başladı. Sonra metodist Elmira Süleymanova çıxış edərək yola saldığımız 2014-cü ildə hərtərəfli şəraitə malik uşaq bağçasının istifadəyə verilməsini diqqətə çatdırdı. Eyni zamanda bağçaya göstərilən diqqət və qayğıya görə bütün kollektiv adından DİN rəhbərliyinə və Daxili Qoşunlar Komandanlığına dərin minnətdarlığını bildirərək, burada tərbiyə olunan bütün uşaqları hər iki bayram münasibətilə təbrik etdi.

Daha sonra körpələri təbrik üçün söz polkovnik M.Qənbərova verildi. O da uşaqları Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə ürəkdən təbrik edərək, bildirdi ki, əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulan bu günü xalqımız 1993-cü ildən etibarən yüksək səviyyədə keçirir. Bu bayram təkcə Vətəndə yaşayan soydaşlarımızın deyil, həm də Azərbaycanın hüdudlarından kənarda olan vətəndaşlarımızın həmrəylik günü kimi qeyd olunur. Çıxışının sonunda polkovnik M.Qənbərov yeni ilin uğurlu, düşərli olmasını, bütün evlərə bol-bol ruzi-bərəkət gətirməsini, heç bir ocaqdan körpə səsinin əskik olmamasını dilədi.

Aparıcı Turanə Cəfərova bayram şənliyinin bədii hissəsini elan etdi. Uşaqlardan iki nəfəri "Azərbaycan" mahnısının sədaları altında, hərbi geyimdə, əlində bayraq zala daxil oldular. Özlərini hərbçi kimi təqdim etdilər. Körpə balalar Vətənə aid şeirlər, milli



rəqs nümunələri, yeni ilə aid rəngarəng musiqilərlə tədbir iştirakçılarının zövqünü oxşamağı bacardılar.

Uşaqların şam ağacının ətrafında fırlanaraq, yeni il mahnısını oxumasını seyr etdikcə sanki, insan bir anlıq uşaq olub onların dünyasını bölüşmək istəyirdi. Şirin balaların çöhrələrindəki saf ifadə, dodaqlarındakı təbəssüm insana mənəvi zövq və rahatlıq gətirirdi. Təbii ki, övladının sevincini, xoşbəxtliyini görüb, bu məqamı onunla birlikdə yaşamaq hər bir valideynin ən böyük arzusudur.

Bu bayram şənliyində də uşaqlar üçün ən maraqlı və sevincli məqam həmişəki kimi, Şaxta babanın gəlişi oldu. Qar qızla birgə Şaxta babanı səsləyən balacalar onun şənliyə gəlişini sürəkli alqışlarla qarşıladılar. Kimisi şeirləri, kimisi mahnıları və rəqs nömrələri ilə Şaxta babanın diqqətini çəkmək istəyirdi. Məhz bu baxımdan onların göstərdikləri "Faydalı insanlar" səhnəciyi çox tərbiyəvi əhəmiyyətə malik olmaqla yanaşı, həm də Şaxta babanın ürəyincə oldu. Onun məzəli tapmacaları uşaqlara xoş və düşündürücü anlar yaşatdı.

Bayram şənliyinin sonunda bütün körpələrə hədiyyələr paylandı və yekun üçün söz Daxili Qoşunların Veteranlar şurasının üzvü, döyüşçü-şair Elxan Xəzərə verildi. O, öz nəvələrinin simasında bütün bağça uşaqları ilə bayramlaşaraq, onlara şeir töhfəsini ərmağan etdi.

Biz də öz növbəmizdə "azyaşlı hərbçilər"imizi təbrik edir, onlara sağlam və mərd böyüməyi, hər zaman Vətənə, xalqa layiqli övlad olmaqlarını arzu edirik. Necə deyərlər, əziz balacalar yeni ilə yeni arzularla...

**gizir N.Rzayeva**

## AZƏRBAYCAN VƏTƏNDAŞLIĞINA QƏBUL EDİLƏN ŞƏXSLƏR SƏDAQƏT ANDI İÇƏCƏKLƏR

Milli Məclisin dekabrın 30-da keçirilən plenar iclasında "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" qanuna edilən dəyişiklikdə nəzərdə tutulub ki, Azərbaycan vətəndaşlığına qəbul edilmiş və ya vətəndaşlığa bərpa edilmiş, 14 yaşı tamam olmuş şəxslər Azərbaycanın dövlət dilində Azərbaycan Respublikasına sadiq qalacaqları barədə and içəcəklər.

Dəyişikliklər haqqında məlumat verən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, qanuna əlavə edilən 15.1-ci yeni maddəyə görə, Azərbaycan Respublikasının vətəndaşlığına qəbul edilmiş və ya vətəndaşlığa bərpa edilmiş və 14 yaşı tamam olmuş şəxs aşağıdakı məzmunda and içir: **"Mən, (Soyadı, Adı, Atasının adı) Azərbaycan Respublikasının vətəndaşı olaraq hər hansı xarici dövlət qarşısında onun vətəndaşlığı ilə bağlı öhdəliklərimin olmadığına, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tabe olacağıma, Azərbaycan dövlətinə sədaqətlə xidmət edəcəyimə, onun müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qoruyacağıma, Azərbaycan Respublikasının adət-ənənələrinə və mədəniyyətinə hörmət edəcəyimə and içirəm".**

Dəyişikliklərə əsasən, andiçmə təntənəli şəraitdə Azərbaycanın Dövlət Bayrağı önündə Konstitusiyaya əl basmaqla həyata keçirilir. And içən Azərbaycan vətəndaşı andın mətnini imzalayır və bu sənəd müvafiq icra hakimiyyəti orqanında saxlanılır.



*Şəhidlərimiz*

## QƏHRƏMANLIQ NÜMUNƏSİ...

Ağdərənin Həsənriz (Aterk) kəndinin müdafiəsi zamanı hərbi qulluqçularımızın göstərdiyi qəhrəmanlıqlar hərb tariximizin şanlı səhifələrindəndir. Daxili Qoşunların Gəncə şəhərində yerləşən 17072 saylı hərbi hissəsinin 38 nəfər döyüşçüsü bu kəndin müdafiəsi zamanı mühasirəyə düşməsinə baxmayaraq, düşmənə təslim olmamış, sonadək vuruşaraq şəhidlik zirvəsinə yüksəlmişlər.

Şəhid Ağayev Sarvan İras oğlu da həmin 38 nəfərdən biri idi. 1973-cü il sentyabrın 15-də Sumqayıt şəhərində dünyaya göz açan Sarvan 1979-1987-ci illərdə şəhərdəki 31 saylı orta məktəbdə səkkizillik təhsil alıb. 44 saylı texniki peşə məktəbində təhsilini davam etdirərək, qaynaqçı peşəsinə yiyələnib. Hərbi xidmətə çağırılana qədər isə istehsalatda çalışıb.

O, 23 aprel 1992-ci ildə Sumqayıt Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılıb. Bir qədər sonra Daxili Qoşunların 17072 saylı hərbi hissəsinin sıravi hərbi qulluqçusu kimi Vətənə olan müqəddəs borcunu şərəflə yerinə yetirməyə başlayır.

Sıravi S.Ağavevin həyat və döyüş yolu barədə görkəmli ziyalımız Tofiq Əliyevin "Sumqayıtın qan yaddaşı" adlı 3-cü kitabında maraqlı məlumatlar verilmişdir. Müəllif kitabında Sarvanın 1992-ci ildə Gəncə şəhərində bir neçə ay təlim keçdikdən sonra Ağdərə rayonuna göndərildiyini qeyd edir: *«Bu dövrdə Ağdərədə qanlı döyüşlər gedirdi. Hər iki tərəfdən çoxlu ölən və yaralanan vardı. Sarvan*



AĞAYEV SARVAN İRAS OĞLU

*Ağayev aparılan qızğın döyüşlərdədəfələrlə fərqlənmişdi. Ağır vuruşların birində Sarvan mühasirəyə düşən əsgər yoldaşlarına kömək etmiş, onları düşmən mühasirəsindən azad etmişdi. Bu fəaliyyətinə görə o, komandirləri tərəfindən təşəkkürə layiq görülmüşdür».*

Kitabda həmçinin Sarvanın qəhrəmancasına döyüşərək, neçə-neçə erməni faşistini məhv etdiyi və misilsiz şücaətlər göstərdiyi vurğulanıb. Qeyd olunur ki, Sarvan 1992-ci il iyulun 19-da Ağdərə rayonunun Aterk kəndi uğrunda gedən ağır döyüşlərin birində yoldaşları ilə birlikdə mühasirəyə düşür. Mühasirəni yarmaq mümkün olmur. Vəziyyəti belə görən Sarvan özü üçün saxladığı qumbaranı çıxarıb yaxınlaşan düşmənə tərəf atır. Partlayış nəticəsində 25-30 nəfərə yaxın erməni yaraqlısı yerə sərilir. Partlayış yaxında olduğundan qumbaranın qəlpələri ondan da yan keçmir. Sarvan gözlərini əbədi yumaraq şəhidlik zirvəsinə yüksəlir.

Müəllif Sarvanın bu cəsarətini Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin igidliyi ilə müqayisə edir.

Daxili Qoşunların Veteranlar Şurasının katibi Yalçın Abbasovun Həsənrizdə şəhid olmuş döyüşçülərimizə həsr etdiyi və «Əsgər» qəzetində çap olunmuş «Aterk döyüşünü xatırladan məzar» başlıqlı məqaləsində olduqca maraqlı məlumatlar da öz əksini tapıb. Xeyli müddət keçməsinə baxmayaraq, yazı oxunarkən, son damla qanlarınadək döyüşərək şəhidlik zirvəsinə ucalan 38 nəfər Azərbaycan hərbçisinin göstərdiyi qəhrəmanlıq nümunələri hər kəsi qürurlandırır.

Şəhid döyüşçümüz haqqında məlumatları həmçinin Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəsmi internet saytında da əldə etmək olar.

Azərbaycan Respublikası Prezidentinin 19 noyabr 1992-ci il tarixli müvafiq Fərmanı ilə sıravi Sarvan Ağayev respublikamızın suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə "Azərbaycan Respublikasının Fəxri fərmanı" ilə (ölümündən sonra) təltif edilmişdir.

**Allah şəhidlərimizə rəhmət eləsin!**

**baş leytenant A.Əhmədov,**
**Mənəvi-psixoloji hazırlıq şöbəsində muzey rəhbəri**

**P.S.** Bakıdakı Şəhidlər Xiyabanda "Qardaşlıq məzarı"nda dəfn edilmiş və 38 nəfər döyüşçünün şərəfinə ucaldılan qəbirüstü abidədə şəhid döyüşçümüzün soyadı, adı və atasının adı Ağayev Sərvan İlyas oğlu kimi qeyd olunub.

***Daxili Qoşunların Hərbi Qospitalının yaranması torpaqlarımızın azadlığı uğrunda erməni təcavüzkarlarına qarşı ağır döyüş əməliyyatlarının aparıldığı bir dövrə təsadüf edir. Nazirlər Kabinetinin 10 yanvar 1993-cü il tarixli müvafiq qərarına əsasən, "Dərin Özüllər" zavoduna məxsus bina qospital üçün nəzərdə tutularaq Daxili Qoşunların balansına verilir. Beləliklə, qoşunların qospitalı kiçik bir həkim kontingenti ilə fəaliyyətə başlayır.***

***Bu gün artıq həmin kiçik həkim kontingenti hərbi qulluqçularımızın və onların ailə üzvlərinin sağlamlığının keşiyində duran böyük bir tibbi personala çevrilmişdir.***

## ZƏNGİN TƏCRÜBƏYƏ MALİK HƏRBİ QOSPİTALIN 22 İLİ TAMAM OLDU

Yeni ilin əvvəli DİN-in Daxili Qoşunlarının həyatında daha bir əlamətdar hadisə ilə yadda qaldı. Yanvar ayının 10-da Daxili Qoşunların Hərbi Qospitalı 22 yaşını təntənəli surətdə qeyd etdi.





Mərasimdə hərbi Qospitalın veteran həkimləri və digər dəvət olunmuş qonaqlar iştirak edirdi. Tədbirin rəsmi hissəsi Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başladı. Sonra Azərbaycanın Dövlət Himni ifa olundu. Ardınca Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədovun təbrikini çatdırmaq üçün söz Daxili Qoşunların Baş İdarəsində Tibb xidmətinin rəisi polkovnik-leytenant Rasim Qüdrətova verildi. Təbrikdə hərbi qospitalın yarandığı ilk günlərdə ön cəbhədə yüzlərlə yaralı döyüşçülərimizi ölümün pəncəsindən xilas edən tibb işçilərinin fəaliyyəti yüksək qiymətləndirilmişdir: ***"...Bu gün də Daxili Qoşunların şəxsi heyətinin sağlamlığının keşiyində müsəlləh əsgər kimi durmuş hərbi qospitalın tibb işçiləri vəzifələrinin öhdəsindən məharətlə gələrək, hərbi qulluqçularımızın qısa bir müddətdə keyfiyyətlə müalicə olunmasını təmin edirlər...".***

Cənab Komandan şəxsi heyətin bundan sonra da qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirəcəyinə, bilik və bacarıqlarını, peşəkarlıq səviyyələrini artıracaqlarına əminliyini ifadə etmişdir.

Sonra hissə komandirinin müalicə işləri üzrə müavini polkovnik-leytenant Şəmsəddin Heydərov çıxış etdi. O, 1992-1993-cü illərdə - qızğın döyüş əməliyyatlarının getdiyi bir vaxtda yaralıların tez bir zamanda sağlamlıqlarının bərpa olunduğunu və yenidən döyüş meydanlarına qaytarıldığını tibb işçilərinin əzmkarlığı və fədakarlığı kimi dəyərləndirdi. Əlavə etdi ki, o zaman - zəruri tibbi avadanlıqların çatışmadığı bir dövrdə həkim briqadası üzərinə düşən tapşırıqları layiqincə yerinə yetirmişdir. Polkovnik-leytenant Ş.Heydərov bu gün qospitalın ən müasir tibbi aparatlarla, diaqnostika vasitələri ilə təchiz olunduğunu Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin qoşunlara olan xüsusi diqqət və qayğısının nəticəsi kimi tədbir iştirakçılarının nəzərinə çatdırdı.

İnfeksiya şöbəsinin rəisi polkovnik-leytenant Adil Həsənov və Reabilitasiya şöbəsinin rəisi mayor Ceyhun Abuzərov da həmkarları qarşısında çıxış edərək müharibənin fəsadlarından, dövrün çətinliyindən bəhs etdilər. Müharibədə həyatlarının ən şərəfli və məsuliyyətli anlarını yaşadıqlarını qeyd edən çıxışçılar bir daha vurğuladılar ki, Qarabağ savaşında yaralanmış hərbi qulluqçuların sağalması üçün əllərindən gələni əsirgəməmişlər. "Qocaman həkimlər" təkcə iki gün ərzində 534 hərbi qulluqçunu həyata qaytardıqlarını dilə gətirərək, onların çoxunun bu gün də sıralarımızda xidmətlərini davam etdirdiklərini bildirdilər.

İştirakçılar arasında olan veteran Faiq Əliyev də öz xatirələrini bölüşmək üçün tribuna önünə keçdi. Çıxışı zamanı hörmətli akademik Vəli Əliyevin "Tarixi unutmağa heç kəsin ixtiyarı yoxdur" fikrini xatırladaraq, hərbi Qospitalın keçdiyi şərəfli döyüş yolunu əks etdirən bir stend hazırlanmasını tövsiyə etdi. Bildirdi ki, bu stend gənc həkimlərimiz üçün bir örnək rolunu oynaya bilər.

Tədbirin rəsmi hissəsi hərbi hissə komandiri polkovnik Elçin Əliyev tərəfindən xidmətdə fərqlənmiş hərbi qulluqçulara mükafatların təqdim edilməsi ilə başa çatdı.

Hərbi qospitalın 22-ci ildönümü Daxili Qoşunların Nümunəvi-göstərici Hərbi Orkestrin solistlərinin konsert proqramı ilə davam etdirildi.

**baş leytenant T.Əlizadə**

## UNUDULMAZ ANLAR...

*Döyüşçü-şair, "Qızıl qələm" mükafatı laureatı, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, tanınmış pedaqoq və psixoloq Elxan Xəzərin Daxili Qoşunların Ali Hərbi Məktəbinin ilk kursantları ilə görüşü keçirilib*

2014-cü ildə ölkəmizin ali təhsil ocaqları sırasına biri də əlavə olundu. Azərbaycan Respublikası Prezidentinin 25 fevral 2011-ci il tarixli sərəncamı ilə yaradılmış, 09 iyul 2012-ci il tarixli fərmanı ilə əsasnaməsi təsdiq olunmuş Azərbaycan Republikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi



Məktəbinin qapıları da ömrünü hərbi sənətə bağlamaq istəyən gənclərimizin üzünə açıldı.

Daxili Qoşunlar üçün peşəkar zabit kadrları hazırlamaq məqsədilə yaradılmış bu Ali Hərbi Məktəb ilk gündən daxili nizam-intizamı, tədris və təlimin keyfiyyəti, kursantların mənəvi-psixoloji hazırlığına xüsusi diqqət yetirməsi ilə seçilməyə başladı.

Fəaliyyətə başladığı gündən cəmi bir neçə ay keçməsinə baxmayaraq, Ali Hərbi Məktəbin pedaqoji kollektivi bir neçə dərs vəsaiti, təbliğat və tərbiyəvi xarakterli kitabçalar hazırlayaraq müdavimlərə təqdim etməyə imkan tapıb.

Hərbi xidmətin yüksək səviyyədə təşkil olunmasının təminatçısı zabitdir. Buna nail olmaq üçün gələcək komandirlərin təkcə elmi-nəzəri, taktiki-texniki, fiziki hazırlığı kifayət deyil, onların mənəvi-psixoloji durumu da müasir dövrün tələblərinə uyğun olmalıdır. Zabitləri yurdunu, dövlətini və xalqını ürəkdən sevən, yüksək mənəvi keyfiyyətlərə malik vətəndaş kimi yetişdirmək üçün müasir İKT-dən, mətbuatın, televiziyanın, kino və teatrın imkanlarından geniş istifadə etmək lazımdır. Buna nail olmaq üçün Daxili Qoşunlar Komandanının göstərişinə əsasən, Ali Hərbi Məktəb rəhbərliyi kursantların alimlər, yazıçılar, incəsənət xadimləri, müharibə və silahlı qüvvələr veteranları ilə görüşlərini planlaşdıraraq bu vacib işin icrasına start verib.

19 dekabr 2014-cü ildə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin ilk kursantları ilə döyüşçü-şair, "Qızıl qələm" mükafatı laureatı, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, ikinci dərəcəli müharibə əlili, tanınmış pedaqoq



və psixoloq Elxan Xəzərin görüşü də bu məqsədə xidmət edirdi.

Şairin veteran dostları-Daxili Qoşunların Veteranlar Şurasının sədri Murad Mürsəlov, sədr müavini Telman Aslanov, Şura üzvləri: Səfxan Bayramov, Mehralı Şamxalov, Əlixan Bünyatov və Yalçın Abbasov da onunla birlikdə kursantların görüşünə gəlmişdi.

Görüşü giriş sözü ilə açan Daxili Qoşunların Ali Hərbi Məktəbinin rəis müavini polkovnik Sahib Babayev ziyalı, alim, şair və yazıçıların gənclərlə, xüsusən hərbi sahəni seçmiş cavanlarla görüşlərinin əhəmiyyətindən söhbət açdı, belə tədbirlərin şəxsi heyətin mənəvi-psixoloji durumunun yüksəldilməsində böyük rol oynadığını vurğuladı. O qeyd etdi ki, tanınmış yaradıcı insanlardan biri olan Elxan Xəzərlə görüşlərin daha böyük dəyəri var. Ona görə ki, Elxan müəllim gözəl söz ustası olmaqla yanaşı, Daxili Qoşunların veteranıdır. Bir müddət bu hərbi qurumun tərkibində xidmət edib. O, 1992-ci ilin avqustundan 1993-cü ilin martınadək Ağdərə bölgəsində gedən döyüşlərdə iştirak edərək iki dəfə yaralanıb. Sonradan Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş Ənvər Arazovun rəhbərlik etdiyi hərbi hissədə döyüş xidməti üzrə komandir müavini olan Elxan Xəzər o dövrdə aparılmış uğurlu əməliyyatların ön sırasında olmuş və 10-dan artıq yaşayış məntəqəsinin azad olunmasında iştirak etmişdi. Hələ cəbhədə olduğu dövrdə qələmə aldığı şeirlərlə əsgərləri döyüşə ruhlandırmışdır.

1993-cü ildə "Səngər nəğmələri" adı ilə çap olunmuş kitabdakı poetik nümunələr həmin dövrün məhsuludur.

İndi şairin 20-dən artıq kitabı nəşr olunub və onların bir çoxu hərbi hissələrimizin kitabxanalarında ən dəyərli tərbiyə vasitəsi kimi əsgər və zabitlərin istifadəsindədir. Polkovnik S.Babayev bildirdi ki, onunla hər görüşü səbrsizliklə gözləyir və müəyyən hazırlıq işləri aparırıq. Elə bu görüşdə də kursantlardan bir neçəsi Elxan Xəzərin şeirlərindən nümunələri tədbir iştirakçılarına təqdim etdi.

Sonra o, Elxan Xəzərin həyat və yaradıcılığı haqqında məruzə etmək üçün müharibə veteranı, hərbi jurnalist Yalçın Abbasova söz verdi.

Y.Abbasov hərbçi-şairin həyatı, xidməti fəaliyyəti, döyüş yolu, yaradıcılığı, respublika veteran hərəkatında tutduğu layiqli yeri haqqında geniş məruzə etdi.

Ali Hərbi Məktəbin kursantları Elxan Xəzərin "Türkün hər şeyi var", "Biz etməsək, kim edəcək", "Döyüşçü nəğməsi", "Nicat vuruşdadır", "İndi hünər vaxtıdır", "Qoy hamı bilsin ki" şeirlərini söylədilər.

Daxili Qoşunların Veteranlar Şurasının sədri, ehtiyatda olan polkovnik-leytenant Murad Mürsəlov isə şair dostu ilə bağlı xatirələrini danışaraq Elxan Xəzərə həsr etdiyi şeiri oxudu.

Daha sonra döyüşçü-şair Elxan Xəzər tədbir iştirakçıları qarşısında çıxış edərək kursantlara məsləhət və tövsiyələrini verdi, arzu və istəklərini çatdırdı, müxtəlif kitablara daxil edilmiş şeirlərindən nümunələr səsləndirdi.



Görüşə yekun vuran Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin rəisi general-mayor İlqar Məmmədov Elxan Xəzərin fəaliyyətini yüksək qiymətləndirdi, kursantlarla görüşə gəldiyinə görə ona təşəkkür etdi və əmin olduğunu bildirdi ki, bu görüşdə həm şairin, həm də veteranların səsləndirdiyi fikirlər kursantların mənəvi-psixoloji hazırlığının yüksəlməsinə müsbət təsir göstərəcək.

O, Elxan Xəzərin "Fəxri fərman"la təltif olunduğunu bildirdi və mükafatı tədbir iştirakçılarının alqış sədaları altında şairə təqdim etdi.

Görüşün sonunda Elxan Xəzər müxtəlif illərdə nəşr olunmuş kitablarından nümunələri kursantlara hədiyyə edərək onlarla xatirə şəkilləri çəkdirdi.

**leytenant X.Tağıyeva**